

Ramiz TƏMKİN

## GƏLİN QAYASI

Xəyala daldırdı məni bu sənət,
Yarandı qəlbimdə ehtiram, hörmət.
Yaratmış zirvədə qadın heykəli,
Mahir heykəltəraş, rəssam təbiət.

Yağışdan, tufandan, qardan qoruyur,
Körpə balasını basıb köksünə.
Köhnəlmiş yaramın üstə köz qoyur,
Dillərdə dolaşan qədim əfsanə:

- Belə söyləyirlər, bu daş qadın da,
Adi insan imiş canlı, nəfəsli.
O, öz körpəsinə layla çalanda,
Bülbül ləhcəliymiş, şair həvəsli.

Bir gün səhv eləmiş, günah işləmiş,
Süfrəni uşağın üstünə sərmiş.
Yer lərzəyə gəlmiş, göy də titrəmiş,
Onu körpəsiylə daşa döndərmiş.

- Yalandır, babalar inanıb necə,
İnsan yalanlara boyun əyərmi?
Ən müqəddəs Tanrı anadır, məncə,
Allah da Allahı daş eləyərmi?

Səssiz kinolara bənzəyir bu dağ,
Sükutla oxunur ana laylası.
Səcdəyə layiqdir bu pir, bu ocaq,
Bu gəlin qayası, gəlin qayası.

Buludla yanaşı durub möhtəşəm,
İki göz istəyir baxdıqca baxa
Neçə saatdır ki, sehirlənmişəm,
Neçə saatdır ki, özümdə yoxam.

Qırxıncı qapıdır itib açarı,
Bu da göyün yerə bir diktəsidir.
Bura insanlığın ölçü meyarı,
Əlçatmaz məkanın son nöqtəsidir.

Xatirəyə dönüb daş yaddaşında,
Zirvənin dünəni, dağın bu günü.
Təbiət yaradıb zirvə başında,
Göstərsin ananın böyüklüyünü.

## BİR UŞAQ QAÇIR

Bir-bir vərəqləyib olub-keçəni,
Tapmayır qaradan ağı seçəni
Canavar gözündən işıq götürüb,
Vahiməyə salıb zülmət gecəni,
Üzü gündoğana bir uşaq qaçır.

Göz yaşı dağların seli olannan,
Ürəyi ocağın külü olannan.
Ədalət axtarır, divan axtarır,
Yalan bir bəzəkli gəlin olannan,
Üzü gündoğana bir uşaq qaçır.

Qaçır köpəklərin mırıltısından,
Qaçır qarğaların qarıltısından.
Yaralı bülbüldür, qanı tökülən,
Qaçır saxtalığın parıltısından,
Üzü gündoğana bir uşaq qaçır.

Neştər sinəsinə sancılır hər gün,
Dinib danışmayır, durur lal kimi.
Namərd tənəsindən qorunmaq üçün,
İlan zəhərini içib bal kimi,
Üzü gündoğana bir uşaq qaçır.

Hər gün qapıları döyür təkbətək,
Çiçəkdən çiçəyə qonan arıtək.
Ölüm günahları yuyub aparır,
Ölüm müqəddəsdir ulu Tanrıtək,
Üzü gündoğana bir uşaq qaçır.

## AZƏRBAYCAN TANIYIRAM

İşim yoxdur dayaz çayla,
Dərin ümman tanıyıram.
Gələcək min bir harayla,
Sərt imtahan tanıyıram.

Ulduzların çoxdur sayı,
Çatmır bizə işıq payı
Bir günəşi, bir də ayı,
Nur paylayan tanıyıram.

Hakimidir həsrət, düşün,
Mənim əriyən ömrümün
O tay üçün, bu tay üçün,
Yanan insan tanıyıram.

Tez özünü yetirəcək,
Həsrətləri itirəcək,
Sevinc, vüsal gətirəcək,
Dolğun tufan tanıyıram.

Xudafərin çox əzizdir,
Babamın saldığı izdir.
Şimal-Cənub bu boş sözdür,
Azərbaycan tanıyıram.